Azərbaycan Respublikası
Ədliyyə Nazirliyində
Qeydiyyata alınmışdır: №__________

____________________________________

"____"________2005-ci il

Təsdiq edirəm:
Azərbaycan Respublikası
Rabitə və İnformasiya
Texnologiyaları Naziri

________________Ə.Abbasov

"____"__________2005-ci il

**Radio-Televiziya yayımı və Peyk rabitəsi
İstehsalat Birliyinin
(TELERADİO İB)**

# N İ Z A M N A M Ə S İ

**BAKI – 2005**

## I. Adı və ünvanı.

1.1 Birliyin adı:
-Radio-Televiziya yayımı və Peyk rabitəsi İstehsalat Birliyi; (qısa adı: Teleradio İB)
1.2. Birliyin ünvanı: Azərbaycan Respublikası, Bakı şəhəri, A.Abbaszadə küçəsi, 2;

## II. Birliyin hüquqi statusu.

2.1. Birlik Azərbaycan Respublikası Prezidentinin 20 fevral 2004-cü il tarixli 94 №-li Sərəncamına və Azərbaycan Respublikası Prezidentinin 10 avqust 2004-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi haqqında Əsasnaməyə müvafiq olaraq, Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin ___ __________ 2005-ci il tarixli ___№-li əmri ilə Azərbaycan Respublikası Rabitə Nazirliyinin Radiorabitəsi, Radio və Televiziya Verici İstehsalat Birliyinin adı və tabeçiliyi dəyişdirilərək yaradılmışdır.
2.2.Birlik Azərbaycan Respublikası qanunları ilə müəyyən olunmuş dövlət qeydiyyatından keçdiyi andan "hüquqi şəxs" hüququna malikdir.
2.3.Birliyin istehsal-maliyyə fəaliyyəti təsərrüfat hesabı və özünü maliyyələşdirmə prinsipi ilə həyata keçirilir.
2.4.Birlik Respublika qanunçuluğu əsasında fəaliyyət göstərir, öz fəaliyyətində Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamlarını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Rabitə və İnformasiya Texnoligiyaları Nazirliyinin, onun kollegiyasının qərar və təlimatlarını, digər normativ hüquqi aktları rəhbər tutur. Bu Nizamnamədə nəzərdə tutulan vəzifə funksiyalarının həyata keşirilməsi məqsədilə Birliyin qüvvədə olan qanunvericiliyə zidd olmayan fəaliyyət göstərməyə və qərarlar qəbul etməyə ixtiyarı vardır.
2.5.Birliyin fəaliyyəti Azərbaycan Respublikasının 01 iyul 1994-cü il tarixli "Müəssisələr haqqında Qanun"la və Azərbaycan Respublikasının digər qanunvericilik aktları ilə tənzimlənir.
2.6.Birlik Azərbaycan Respublikasının qanunvericilik aktları ilə qadağan edilməyən, Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Naziri tərəfindən təsdiq olunmuş Nizamnaməsində nəzərdə tutulan istənilən növ təsərrüfat fəaliyyəti ilə məşğul ola bilər.
2.7.Birliyin əmlakı Azərbaycan Respublikasının dövlət mülkiyyətindədir. Birlik müstəqil balansa, Respublika banklarında hesablaşma valyuta və digər hesablara, Respublikanın dövlət gerbi və öz adı təsvir olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

2.8.Birlik bilavasitə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinə tabedir, onun tərkibi Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən, struktur vahidlərinin tərkibi isə Birliyin özü tərəfindən təsdiq olunur.

2.9.Tabe müəssisələrin fəaliyyətlərinin əlaqələndirilməsi, onlara nəzarətin gücləndirilməsi, eyni zamanda vahid rəhbərliyi təmin etmək məqsədilə Birliyin tərkibinə hüquqi şəxs statusuna malik aşağıdakı struktur vahidləri daxildir.

-Gəncə Radio Televiziya Yayım Müəssisəsi (Gəncə şəhəri)

-Mərkəzi Radio Televiziya Yayım Müəssisəsi (Bakı şəhəri)

-Bakı Teleqüllə Müəssisəsi (Bakı şəhəri)

2.10. Birlik və ona tabe müəssisələrin büdcə ilə hesablaşmaları mövcud qanunvericiliyə uygunlaşdırılmaqla mərkəzləşdirilmiş qaydada Birlik tərəfindən anaparılır.

2.11.Birlik onun tərkibinə daxil olan müəssisələrin öhdəliklərinə, müəssisələr isə eynilə-Birliyin öhdəliklərinə görə-Nizamnamədə digər qaydalar nəzərdə tutulmayıbsa, cavabdeh deyildir.

2.12.Birlik əsas fondlardan və dövriyyə vəsaitlərindən ibarət olan vəsaitlərə, həmçinin qiymətli materiallara və pul vəsaitlərinə malikdir. Birliyin vəsaitləri onun tam sərəncamındadır və alına bilməz.

## III. Birliyin fəaliyyətinin məqsədi, növü və məzmunu.

3.1.Birliyin fəaliyyətinin əsas məqsədi Azərbaycan Respublikası ərazisində bütün inzibati və təsərrüfat obyektlərinə, bütün hüquqi və fiziki şəxslərə, bütün respublika əhalisinə radio-televiziya yayımı, peyk rabitəsi və telekommunikasiya xidmətləri göstərmək, fəaliyyətindən mənfəət əldə etmək və Birlik kollektivini stabil gəlirlə təmin etməkdir.

3.2.Birlik nizamnamə ilə müəyyən olunmuş məqsədlərini qanunla müəyyən olunmuş qaydada və qadağan olunmayan hallarda müvafiq lisenziya aldıqdan sonra reallaşdırmaq üçün aşağıdaklı fəaliyyət növlərini həyata keçirə bilər:

-istehsal

-təsisçilik

-investisiya

-təchizat

-elmi-tədqiqat

-layihələşdirmə

-marketinq

-diler

-reklam-nəşriyyat

-xarici iqtisadi əlaqələr

-vasitəçilik

-məsləhət

-maliyyə-kredit

-montaj-quraşdırma

-alqı-satqı

-Azərbaycan Respublikasının qanunvericiliyində icazə verilən bütün digər fəaliyyət növləri.
3.3.Birliyin fəaliyyətinin məzmunu:
Azərbaycan Respublikası ərazisində bütün inzibati və təsərrüfat subyeklərini, bütün hüquqi və fiziki şəxsləri, bütün əhalini radio-televiziya yayımı, peyk rabitəsi və telekommunukasiya xidmətləri ilə təmin etmək;
-peyk, radio-rele və yayım şəbəkələrinin inkişafı və təkmilləşdirilməsi, istismarı və avdanlığın iş rejimində saxlanılması işlərini təşkil etmək, sifarişçi vəzifəsini yerinə yetirmək;
-peyk, radio-rele və yayım şəbəkələrinin inkişafı üçün maliyyə və digər vəsaitlərdən mərkəzləşdirilmiş və məqsədyönlü istifadə etmək,
-texnoloji cəhətdən bağlı obyektlərin fasiləsiz iş prosesini təmin etmək, müəssisələrin, obyektlərin istehsal güclərinin texniki təminatını həyata keçirmək;
-Birliyin mülkiyyətinin idarə olunması hüququnu və istifadəsini həyata keçirmək;
-peyk rabitəsi sistemlərinin, obyektlərinin, xidmətlərinin özəlləşdirilməsi prosesində iştirak etmək, Birliyin maliyyə-kredit, hüquqi, elmi-texniki və digər xidmətlərinin həyata keçirilməsini təmin etmək,
-işçilərin və kadrların hazırlanmasını nəzərdə tutan təkmilləşdirilmənin səmərəli sistemlərini yaratmaq;
- Birliyin və tabe müəssisələrin istehsal proqramını koordinasiya etmək;
-qüvvədə olan qanunvericiliyə uyğun olaraq xidmətlərin Tarif Şurasının tariflərilə qiymətləndirilməsini həyata keçirmək;
-Birliyin və onun kollektivinin sosial-iqtisadi inkişafını təmin etmək.

## IV. Birliyin hüquqları.

4.1.Azərbaycan Respublikasının qanunuvericiliyində və normativ hüquqi aktlarında nəzərdə tutulan bütün hüquqlara malikdir.
4.2.Birlik onun Nizamnamə fonduna daxil olan və digər əsaslarla əldə olunmuş fondları üzərində sərəncam verir, öz öhdəliklərinə görə məsuliyyət daşıyır.
4.3.Birlik bütün mülkiyyətinin idarə olunması, istifadəsi və fəaliyyətinin tənzimlənməsi hüququna malikdir.
4.4.Birliyin ixtiyarı vardır:
-struktur vahidləri yaratmaq, ləğv etmək: fəaliyyət tənzimləyən reklamasiya sənədlərini təsdiq etmək;
-idarəetmə orqanlarının strukturunu müəyyən etmək;
-müqavilə bağlamaq, arbitraj məhkəmələrində şikayətçi və cavabdeh kimi iştirak etmək,
-mülkiyyət, maliyyə, təchizat, alqı-satqı əməliyyatlarının aparılmasına vəkalətnamə və öhdəliklər vermək;
-Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq təsisçi olmaq, respublikada və xaricdə digər təsərrüfat cəmiyyətlərinin, müəssisələrinin iştirakçısı olmaq;

-Birliyin göstərdiyi rabitə xidmətlərinin (və digər) qiymətlərini Tarif Şurasının qiymətlərilə müəyyənləşdirmək;
-əməyin mühafizəsi və texniki təhlükəsizliyin vəziyyətinə nəzarət etmək və tabe müəssisələrin rəhbərlərinə əməyin mühafizəsi qanununun və normativ akrlarının pozulması hallarını aradan qaldırılması üçün göstərişlər vermək;
-Azərbaycan Respublikasının qanunlarında və bu Nizamnamədə nəzərdə tutulan digər hüquqları həyata keçirmək.

## V. Birliyin əmlakının yaranması və mənfəətin bölüşdürülməsi qaydası.

5.1. Birlik onun mülkiyyətinə verilmiş təsərrüfat fəaliyyəti nəticəsində əldə olunmuş bütün vasitələrin mülkiyyətçisi hesab olunur.
5.2. Birliyin əmlakı onun əsas fondlarından və dövriyyə vəsaitlərindən, habelə müəssisənin müstəqil balansında dəyəri göstərilən digər qiymətli əşyalardan ibarətdir.
5.3. Birliyin əmlakının əmələ gəlmə mənbələri aşağıdakılardır:
-Təsisçinin pul və maddi paylarından;
-Xidmət göstərilməsindən, görülən işlərdən, məhsul satışından, habelə təsərrüfat fəaliyyətinin digər növlərindən alınan gəlirlərdən;
-Qiymətli kağızların satışından əldə edilən gəlirlərdən;
-Bank kreditləri və digər kreditlərdən;
-Kapital qoyuluşu və büdcədən datasiyalardan.
5.4. Büdcəyə vergiləri və digər ödənişləri verdikdən sonra xalis mənfəət müəssisənini tam sərəncamında qalır və ondan istifadə müəssisənin müstəqil səlahiyyətindədir.

## VI. Birliyin fəaliyyətinin təşkil edilməsi.

6.1.Birliyin fəaliyyətinə Rabitə və İnformasiya Texnologiyaları Naziri tərəfindən təyin edilən Birliyin Baş direktoru rəhbərlik edir.
6.2.Birliyin Baş direktoru etibarnaməsiz Birlik adından fəaliyyət göstərir, onun mənafelərini bütün müəssisə, təşkilat və idarələrdə təmsil edir.
-Birliyin əmlakı, maddi sərvətləri barəsində sərəncam verir, müqavilələr, o cümlədən əmək müqavilələri bağlayır, etibarnamələr verir, banklarda hesablaşma və digər hesablar açır, vəsaitləri yönəltmək hüququndan istifadə edir.
-Birliyin İdarə heyətinin və tabe strukturlarının ştatını təsdiq edir, Birliyin bütün işçiləri tərəfindən icrası məcbur olan əmr və göstərişlər verir.
-Birliyin tərkibində olan bütün struktur vahidlərinin rəhbər işçilərini vəzifəyə təyin edir və vəzifədən azad edir.
-Birliyin texniki direktoru və digər rəhbər işçilərinin vəzifəyə təyin olunması və vəzifədən azad olunması barədə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinə təqdimat verir.

6.3. Birliyin Baş direktoru Birliyin bütün fəaliyyətinin nəticələrinə görə, o cümlədən:

-Respublika ərazisində Radio-Televiziya yayımı və Peyk rabitəsi şəbəkəsinin keyfiyyətli və operativ idarə olunmasına görə;

-Qüvvədə olan qanunlara və təlimatlara müvafiq Radio-Televiziya yayımı və Peyk rabitəsi texniki vasitələrinin texniki və ümumi istismarına görə;

-Bütün texniki vəsaitlərin xüsusi şəraitdə işləməyə hazırlığına görə;

-dövlət sifarişlərinin yerinə yetirilməsinə, plan, maliyyə, layihə, ştat və müqavilə intizamına riayət edilməsinə görə;

-əməyin mühafizəsi və texniki təhlükəsizlik üzrə qanun, norma və qaydalara riayət edilməsinə görə;

-kadrlar seçilməsinə və yerləşdirilməsinə, əmək, istehsal və maliyyə intizamına əməl olunmasına görə;

-pul və digər qiymətli vəsaitlərin mühafizəsinə və düzgün xərclənməsinə görə;

-müəssisələr haqqında Azərbaycan Respublikası qanuna müvafiq nizamnaməyə, Respublika hökümətinin qərarlarına, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin əmrlərində nəzərdə tutlan digər vəzifələrin yerinə yetirilməsinə görə dövlət və əmək kollektivi qarşısında məsuliyyət daşıyır.

6.4. Birliyin Baş direktoru Birliyin rəhbər işçiləri arasında vəzifə bölgüsünü aparır.

6.5.Birliyin Baş direktoru öz vəzifələrini icra edə bilmədikdə onun vəzifələrinin icrası Baş direktorun müavininə həvalə olunur.

6.6. Radio televiziya yayımı, peyk rabitəsi, rabitə və informasiya texnologiyaları sahəsində elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi üçün Birlikdə ictimai əsaslarla Elmi-Texniki Şura yaradılır.

## VII. Birliyin yenidən təşkil olunmasının şərtləri və onun fəaliyyətinin dayandırılması və ləğvi qaydaları.

7.1. Birliyin yenidən təşkil edilməsi və ləğv edilməsi əmlak mülkiyyətçisinin, Birlik yaratmağa vəkil edilmiş orqanın qərarı ilə həyata keçirilir.

7.2. Birliyin ləğvi Azərbaycan Respublikasında “Müəssisələr haqqında Qanun”a əsasən müəssisələrin ləğvi üçün müəyyən edilmiş qaydada həyata keçirilir. Birliyin nizamnaməsinə uyğun olaraq onun təsisçisinə qaytarılır.

7.3. Birliyin yenidən təşkil olunmasını və ləğvini həyata keçirən orqan onun işçilərinin hamısının işlə təmin olunmasına borcludur.

**“Teleradio” İB-nin**
**Baş direktoru** **İ.Əhədov**